həll edirdilər...

Bəs necə həll edirdilər? Bu xüsusda isə Şeyx Səfiəddinin Ərdəbil "Darül-irşad"ına rəhbərlik etdiyi vaxtlardan danışarkən, geniş bəhs edəcəyik... Onu da qeyd edim ki, hətta bir çox böyük mənsəb sahibləri də bu cür övliyaların məsləhətlərinə əməl edirdilər. (Xırda bir nümunə göstərim ki, Hülakülər sarayının vəziri, məşhur Xacə Rəşidəddin Şeyx Səfiəddinin müridlərindən biri idi.)

Budur, yuxarıda qoyduğumuz sualların cavabını açıqladıq. Birincisi, riyazət, zöhd, təqva və müxtəlif başqa riyazət üsulları saliklərin bəsirət gözünün açılmasına xidmət edir... Və ən əsas da, bütün bu səylər sadəcə eqoistik məqsədlər daşımır - fərdin özünün hansısa ali mənəvi dərəcə sahibi olmağı, Allaha yaxınlaşmağı üçün deyil, həm də toplumun, xalqın mənəvi-psixoloji problemlərini həll etmək üçün edilirdi. Yəni, *övliyalıq* institutu sadəcə fərdi-metafizik müstəvidə deyil, həm də sosial-ictimai müstəvidə geniş "İrşad" fəaliyyətilə məşğul olurdu ki, burda da müasir dönəmdə psixoloqların fəaliyyətiylə analogiya aparmaq olar.

Və sonda onu da bildirim ki, əgər iki yüz il ərzində Səfəvi şeyxlərinin bizim xalq qarşısında bu qədər geniş və ən əsas da təmənnasız irşadi xidmətləri olmasaydı, on minlərlə azəri türkü on beşinci əsrin sonlarında bu təriqət rəhbərlərinin ətrafında belə sıx birləşib böyük siyasi qüvvəyə çevrilməzdilər.

## Məscid və meyxanə

Bir əhəmiyyətli detalı da mütləq qeyd etməliyəm. Biz əksər ədəbiyyatımızda, poeziyamızda, rəvayət və lətifələrimizdə müftəxor molla, tamahkar qazi, səfeh axund kimi mənfi obrazlarla çox rastlaşırıq ki, sonradan Sovet hakimiyyəti illərində bu obrazlar bir qədər də mənfi çalarlarda təqdim olunmağa başladı. Sual oluna bilər ki, bu rəsmi ruhaniyyət zümrəsi və övliyalıq-mürşidlik institut arasında fərq nədə idi, aralarında münasibətlər necə idi?

Zənnimcə bunu mütləq izah etmək lazımdır, çünki biz *övliyaların* kəramətlərindən, mənəvi-əxlaqi saflıqlarından danışarkən oxucuların gözünün önünə mütləq həmin mənfi molla tipajları gəlir və bizim yaratdığımız obrazlarla ziddiyyət təşkil edir...

Yəni oxucunun bir gözündə Şeyx Səfiəddin, Şeyx Zahid və bu cür saf övliyalar, pirlər; digər tərəfində isə Şeyx Nəsrullah arxetipi yer tutur... Bunların hansı həqiqi, hansı saxtadı?

Əslində, hər ikisi həqiqidi. Burda incə bir mətləbə diqqət etmək lazımdır. Rəsmi ruhani zümrəsinə xas mənsəb sahibləri - yerli mollalar, axundlar, qazilər qanun uğun olaraq, hökmdarlar və ya vilayət əmirləri tərəfindən təyin olunurdu ki, yerlərdə xalqın həm şəriət, həm də fiqhi (hüquqi) problemlərilə məşğul olsunlar. Əhali içində ilkin təhsil, nikahda kəbin-talaq, dəfn-kəfən, vərəsəlik bölgüsü, müəyyən dini vergilərin yığılması və sair belə vəzifələri yerinə yetirirdilər... Belə ruhani zümrənin içində əməli saleh olmayan, tamahkar, acgöz, şəhvətpərəst adamlar çox olurdu ki, xalqın içində "riyakar ruhani", "məscid əhli" kimi mənfi arxetiplərin yaranmasına səbəb olurdu.

Lakin övliyaları heç kim təyin eləmirdi. Xalq özü irşad yolu tutanların arasından kimlərəsə daha çox könül bağlayır, daha çox hörmət göstərirdi, onları ali səviyyəyə qaldırırdı.

Niyə? Çünki onilliklər boyu bu insanların həyatını müşahidə edərək görürdülər ki, bu müddət ərzində mənfi, rəzil xüsusiyyətlər üzə çıxmayıb - tamahkar olmayıblar, riyakarlıq nümayiş etdirməyiblər, rəzil işlərin ardıyca getməyiblər və təmənnasız olaraq camaatın xidmətində durublar - və onilliklər ərzində xalqda da əminlik yaranırdı ki, bu insanlar həqiqətən də Allah dostları - *vəli, övliyadır*. Ona görə də, *axunddan, qazidən* fərqli olaraq, *vəli, övliya, pir* məfhumları rəsmi dini status deyil, ali mənəvi mərtəbənin təzahürüdür.

Onu da qeyd edim ki, rəsmi ruhani mənsəb sahibləri həmişə "Darül-irşad"lara, Xanəgah və təkyə sufilərinə, irfan sahiblərinə həmişə müəyyən qıcıq hissiylə, aqressivliklə yanaşıblar, çünki xalqın gözündə onların qazandığı hörməti qazana bilməyiblər. Şeyx olublar, *axund* olublar, *qazi* olublar, amma *vəli* -Tanrı dostu ola biləməyiblər...

Təsəvvüf və İrfan əhlinə qarşı tarixən rəsmi ruhanilərin verdiyi çoxsaylı fitvalar, qəddar çıxışlar bunun misalı ola bilər. İrfan əhli isə bunun cavabını rəmzi işarələrlə verirdi. Klassk Şərq ədəbiyyatında məscid-meyxanə qarşıdurması da məhz bu münaqişələrin nəticəsidir. Məscid əhli - rəsmi ruhani zümrəni, meyxanə əhli isə irfan yolçularını simvolizə edib...

Çünki rəsmi ruhani zümrənin böyük hissəsi ilahi mərifətdən nə qədər danışsa da, minbərlərdən mənəvi saflıq barədə nə qədər moizələr oxusa da, əslində dünyaya arxa çevirə bilmirdi, dünyapərəst, tamahkar, qəsbkar olaraq qalırdı. İrfan əhli isə dediklərini həm də əməllərilə sübut edirdi - mənəvi cəhətdən o qədər saflaşıb o qədər təmizlənirdi ki, dünyadan çox-çox irəli gedirdi. Dünya isə onlardan çox-çox arxada qalırdı...

## Yenə də təkyəyə

Səfiəddinin Gilanda Şeyx Zahidin təkyəsində yaşadığı hadisələrə keçməmişdən əvvəl bu uzun izahları verməyə nə qədər ehtiyac var idi, düşünə bilərik? Elə birbaşa məlumatlara, rəvayətlərə keçə bilməzdikmi?

Keçə bilərdik, lakin o zaman bir çox mətləblər bizimçün qaranlıq qalmış olardı. Lakin biz Övliyalıq institutunun əsas mahiyyəti və atributları barədə müəyyən fikirlərimizi bölüşdük, müəmmalı qala biləcək bəzi məsələlərə aydınlıq gətirdik, zənnimcə, bundan sonra gənc Səfiəddinin mənəvi saflaşma və əxlaqi yüksəliş yollarının geniş təsvirinə keçmək olar...